**UOT 782/785**

***Leyla İdrisova***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktorantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** elahus-61@mail.ru

# AZƏRBAYCAN ESTRADA VOKAL JANRI VƏ FOLKLOR

**Xülasə:** Məqalədə estrada vokal janrının ənənəvi musiqi və folklor musiqisi ilə bağlılığından bəhs edilir. Azərbaycanda Estrada sənətinin mənşəyinin qaravəlli tamaşaları, aşıq sənəti, meyxanaçıların çıxışları ilə bağlı olduğu göstərilir.

**Açar sözlər:** vokal, folklor, musiqi üslubu, mərasim, mahnı, muğam.

Estrada səhnə incəsənəti növüdür. Estrada sənəti tamaşalar və konsertlərdə bir neçə artistin çıxışı ilə müxtəlif janrları birləşdirən teatr sənəti növüdür, konsert təsəvvürüdür. Belə ki, bu incəsənət xalq meyxanalarından yetişərək muzikhollarda inkişaf edirdi.

Estradada artistlərin zaldakı dinləyicilərə birbaşa müraciəti əsas götürülür. Artist bir haldan başqa hala keçmək üçün parik, kostyum detallarından istifadə edir. Çıxışlarının qısalığını nəzərə alaraq estrada artistləri zaldakı dinləyicilərə mübaliğəli qeyri – adi tərzdə təsəvvür edilən sənət əsəri kimi komik, gülməli tamaşa göstərərək masqaraçılıqla cəld, iti təsir göstərmək iqtidarındadılar. Bura bədii qiraətçi, müğənni, musiqiçi, akrobat, rəqqas və başqaları daxildir. Bildiyimiz kimi, XVIII əsrin əvvəllərindəİngiltərədə kiçik estrada teatrları muzik-hol adı altında, XIX əsrin ikinci yarısından Fransada estradasıolan restoranlar (kafeşantan), kabarelər olmuş sonralar isə varyetelər meydana gəlmişdi. Estrada sənətiXX əsrdə daha populyarlaşmış inkişaf etmişdir. M.Şevalye, E. Piaf, Ş.Aznafur, İ.Montan, M.Matye, J.Beko, M.Marso (Fransa), E.Fitscerald, P.Robson, P.Siger, D.Rid (ABŞ), L.Qorse (Argentina), Rafael (İspaniya) estrada sənətinin məşhur sənətkarlarındandırlar. Sosialist ölkələri müğənnilərindən P.Kapaklaiç, C.Marianoviç, L.İvanova, B.Kirov, Y.Xristova, Q. Bondraçkova, A.German, J.Polonski və başkalarının adlarını çəkmək olar. Sovet estrada sənətinin təşəkkülündə inqilabi satira teatrlarının mühüm rolu olmuşdur.

Azərbaycanda teatr sənətinin kökləri xalqın əmək fəaliyyəti, məişəti, şənlik və toy ənənələri ilə bağlıdır. Qədim tarixə malik “Sayaçı”, “Novruz” kimi mərasimlərdə vokal, xor, rəqs və dialoqlarla yanaşı dramatik süjetə də rast gəlirik. “Novruz” mərasiminin “Kosa-kosa” oyunu xüsusi paltar geyinib, maska taxan aktyorun iştirakı ilə əsl teatr nümunəsidir.

Azərbaycan mərasimləri uzun əsrlər boyu formalaşmış, böyük təkamül yolu keçmiş, xalqın təfəkküründə təsdiqini tapmış ənənələr sistemini təmsil edir. Mərasimlərdə xalq mədəniyyətinin müxtəlif formaları, növləri, janrları cəmlənib. Bu baxımdan oyun, əyləncə, geyim, ünsiyyət etiketi, qida, ritual predmetlərinin adlarını sadalamaq olar. Cərəyan edən sənətlərdən mahnı, rəqs, instrumental yaradıcılıq, teatrlaşdırılmış tamaşa, idman yarışmalarını misal göstərmək olar. XX illərdə Moskva, Leninqrad, Bakıda müzik–hollar yaranır.

Azərbaycanda Estrada sənətinin mənşəyi qaravəlli tamaşaları, aşıq sənəti, kəndrbaz, meyxanaçıların çıxışları ilə bağlıdır [2;819]. Sadaladıqlarımız öz növbəsində folklordan qidalanır. Folklor xalq müdrüklüyü mənasını daşıyır. Folklor anlayışı ilə xalqların mənəvi mədəniyyət məhsullarını əhatə edən materiallar nəzərdə tutulur. Folklor xalqa məxsus maddi və mənəvi sərvəti özünə xas üsullarla toplayan təhlil edən sintez etməyi qarşısına məqsəd qoyan sahə kimi elmdə yerini almışdır. Folklor həm

toplanan material həm də bu materialı öyrənən elm mənasında işlədilmişdir. Folklor-ağız ədəbiyyatı, şifahi ədəbiyyat, el ədəbiyyatı, xalq ədəbiyyatı kimi adlandırılanların məcmusu kimi qavranılır. Folklor atalar sözləri, deyimlər, dastanlar, əfsanələr, nağıllar, ağılar, xalq mahnıları, bayatılar, inanclar, xalq oyunları, kilim motivləri, tamaşalar, toylar, adət-ənənə, və geyimlərə qədər geniş bir sahəni əhatə edir. Folklor deyilən zəngin sözlü mədəniyyət məhsullarından ədəbiyyatçı ədəbi mətnlər baxımından, tarixçi tarixi hadisələr və şəxslər haqqında məlumat əldə etmək baxımından, antropoloq folkloru insanların avtobioqrafik təqdimi baxımından, psixoloq ictimai və fərdi psixologiyanın araşdırılması baxımından qiymətləndirdiyi kimi, dilçi danışıq dili, arqolar baxımından, sosioloq xalq sosiologiyasına, ictimai həyat qaydalarına işıq tutacaq vəsait kimi yararlanır. Folklor hər bir elm sahəsi üçün bir qaynaqdır. Antropoloqlara görə folklor ədəbiyyatdır, ədəbiyyatçılar isə folkloru ədəbiyyat deyil, kültür növü və ya kültürün özü kimi tərif edirlər. Folklorun əsas məqsədi insanların minillərlə qoruyub saxladığı və xalq təbəqələri arasında var olan materialları araşdıran, araşdırıb qiymətləndirdikdən sonra regional mədəniyyətlərdən milli mədəniyyətlərə köçürtmək surətiylə onları qüvvətləndirən və dolayısi ilə insanlığın mədəniyyət tarixində iştirak etməsidir. Folklor həm xalqdan xalqa dəyişir, hər bölgənin hər zümrənin fərdi, özünəməxsus folklor dünyası var. Folklor xalqın ənənəyə bağlı maddi və mənəvi mədəniyyətini özünəməxsus metodlarla toplayan, araşdıran, təsnif və təhlil edən, həmçinin xalq kültürü baxımından dəyərləndirən elmdir. Bir hadisənin və ya bir mədəniyyət məhsulunun folklor vəsaiti sayıla bilməsi üçün bu kimi özəlliklərə - xalqa aid olması, şifahi ənənəyə bağlı olması, anonim olması, variantvə versiyalı olması, nəsildən – nəsilə keçərək yayılması, müəyyən coğrafiyada yayılması, bəlli tarixi ənənəyə sahib olması, ümumiləşdirici xüsusiyyət daşıması kimi xüsusiyyətlərə sahib olması vacibdir. Folklorun əsas araşdırma sahəsi xalq mədəniyyətidir. Folklorçulara görə xalq ortaq ictimai və mədəni özəllikləri olan insan birliyidir. Xalq eyni dili daşıyan, bənzər həyat vərdişlərini davam etdirən ənənə və adətlərlə bir-birinə bağlı əlaqələri, ortaq tarixi olan homogen cəmiyyətdir. Xalq geniş mənada bir dildə danışan, ortaq adətləri, yaşamları, ənənələri olan, ortaq şeylərə gülən, ortaq şeylərə ağlayan, siyasi və iqtisadi birliyi olan insan qruplarıdır. Millətdən fərqli olaraq xalqda siyasi və coğrafi birlik düşüncəsi olmaz. Folklorun yarandığı ibtidai çağlarda insanlar birlikdə ovlayıb birlikdə əkdikləri, birlikdə yedikləri, birlikdə yaşadıqları, birlikdə savaşıb qəniməti birlikdə paylaşdıqları çağlardan iş bölümünün ortaya çıxdığı, texnologiyanın inkişafı ilə əldə etdiyi məhsulu sadəcə özü üçün deyil, həm də hakim təbəqə üçün istehsal etdiyi dönəmə qədər uzun bir yol keçmişdir. Səfəvilər dövründə saza, sözə rəğbət artdığından aşıqədəbiyyatı dirçəlməyə, folklor canlanmağa başladı. Eyni yüzildə Osmanlı yönəticiləri də məmləkətin hər tərəfinə yığılmış aşıqları nəzarətdə saxlamaq üçün tədbirlər gördü və xalq ozanlarını öz tərəfinə çəkdi. Beləliklə xalq qavramı içində folklor, folklor anlayışı içində xalq dəyər qazanır. Folklor yalnız Türkiyə türklərində 1908-ci ildən başlayan türkçülük və millətçilik hərəkatı içində inkişaf etməyə, milli oyanışa xidmət etməyə başladı. Folklor qavramı Avropadan və Türkiyədən fərqli olarq həm Orta Asiya, həm Qafqaz, həm də Azərbaycan türklərində millətçilik əhval-ruhiyyəsindən uzaq inkişaf etməyə başladı. Bunun səbəbi həmin türk xalqlarının əsarətdə yaşamaları, ziyalıların rus təhsili görmələri oldu. XX yüzillikdə etnoqraflar folkloru siyasi və ideoloji məqsədlərdən uzaq, xalqın mənəvi və maddi mədəniyyətikimi araşdırmaqla folklor üzərindəki ideoloji-siyasi inhisara son qoydular. Bu gün folklor dedikdə bütün dünyada olduğu kimi, türk dünyasında da yazılı ədəbiyyatdan kənarda qalan layla, əzizləmə, bayatı, ağı, atalar sözü, məsəllər, rəvayətlər, qaravəllilər, lətifələr, tapmacalar, alqış və qarğışlar, dastanlar kimi söyləyəni məlum olmayan sözə mətnlərlə yanaşı söyləyəni məlum olan, lakin qəlibləşmiş ənənə daxilindəyaranan aşıq ədəbiyyatını, xalq tamaşalarını, meydan və kukla oyunlarını, sənət növlərini, xalq biliciliyini nəzərdə tuturuq. Folklor xalqın özünü tam şəkildə bütün tərəfləri ilə gördüyü güzgüdür. 1901-ci ildə Azərbaycanda ilk "Şərq konserti" təşkil edilmiş, konsertdə xanəndələr, aşıqlar, orkestr və xor çıxış etmiş musiqili tamaşa göstərilmişdir.

XVIII yüzilliyin sonlarından maraq obyektinə çevrilən folklor qısa bir zaman içində bir elm sahəsi kimi Avropada və Rusiyada, daha sonra türk dünyasında yayıldı. 1886-cı ildə İsveçrədə "Xalq ənənəsi dərnəyi" quruldu ki, bu da folklorun artıq bəlli bir qurum şəklində fəaliyyətə başlaması demək idi.XIX əsrin sonlarında Avropa universitetlərində folklor kafedraları açıldı. Folklor ali təhsil müəssisələrində oxudulmağa başladı. Türk folklorunun toplanması qismən sistemləşdirilməsi Avropaya, Rusiyaya nəzərən çox erkən XI yüzildə Kaşkarlı Mahmudun "Kitabi divani luğati türk" əsəri ilə başlasa da onun tarixi bir elm kimi XX əsrdən başlayır [5;424]. Folklor özünəməxsus qanunları, dünyası olan dinamik, hər an dəyişən, yenilənən varlıqdır. Milli mənəvi dəyərlərin son yüzildə sürətlə dəyişdiyi zənginləşdiyi bir vaxtda folklor anlayışının yeni münasibətlər baxımından tədqiqi vacib məsələlərdən biridir. Urbanizasiya, köçlər, qaçqınlar problemi, texnologiyanın sürətli inkişafı yeni-yeni folklor materiallarının yaranmasına, ən azından əski nümunələrin böyük bir qisminin ifadan çıxmasına, unudulmasına, şəkil dəyişməsinə, səbəb olur, bunların araşdırılması qloballaşan dünyaya ayaq uydurmaq

baxımından olduqca önəmlidir. Folklorun XXI yüzildə etnik mədəni kontekstdə yeri, rolu və funksiyası yeni baxışların, nəzəriyyələrin yaranmasını zəruri edir. Folkloru iki şəxs - söyləyən və dinləyən yaradır [5;40]. Folklor söyləyənlə dinləyənin arasında bir növ dialoqdur, münasibətdir, informasiya alış-verişidir. Söyləyici nə qədər hazırlıqlı olsa da mətni formalaşdırarkən dinləyicinin sosial sifarişinə görə hərəkət etməli olur. Bu halda söyləyici informasiyanın daşıyıcısı olaraq, aktiv icraetmə yükünü üzərinə alır. Hər bir folklor mətni və musiqisi mətni söyləyənlə dinləyən, keçmişlə gələcək arasında bir vasitədir. Söyləyici demək istədiklərini mətn və musiqi vasitəsilə auditoriyaya çatdırır. Folklor insanların bir-birinə xitab etdikləri, üz-üzə danışdıqları zaman meydana gəlir. Həm göstərən, həm seyrçi, həm danışan, həm də dinləyən eyni anda folklor hadisəsinin içindədir. Sözlə musiqinin vəhdətindən folklor yaratmaqdadılar. Söyləyici və ya göstərici (ritualların, bayram tamaşalarının, meydan oyunlarının söyləyicisi, dinləyənlə və ya seyrçilərlə birgə yaratma, meydana gətirmə prosesinin iştirakçısıdır. Söyləyici-ifaçı dinləyicini maraq içində saxlamaq, həyəcanı bir an olsun belə azaltmamaq üçün auditoriyanı da mövzunun bir parçasına çevirir, başqa sözlə dinləyənləri də hadisələrdə sanki iştirak etməyə yönəldir. Bu baxımdan yeni icra auditoriyası yeni süjet əlaqəsinə səbəb olur. Sözlü mədəniyyətdə bir mahnının, söz mətninin variantları təkrarı qədər çoxdur. Sözlə ifa mədəniyyətində söyləyicinin bilinənlə bilən arasında yaxın və duyğusal əlaqə qurması və bilinməyənləri böyük bir zövqlə anlatması dinləyici ilə öz arasındakı əlaqənin möhkəmlənməsinə səbəb olur. Azərbaycan Estradası qaravəlli tamaşalarından qaynaqlanırsa, qeyd etmək lazımdır ki, qaravəlli aşıq yaradıcılığında olan musiqi-şeir formalarından biridir [3;34]. Aşıq sənəti xalqımızın çoxəsirlik tarixinin və mənəvi mədəniyyətinin tərkibhissəsidir. Bu sənəti yaradan xalqdır. Aşıq el arasında "xalq aşığı", "haqq aşığı", "ustad" kimi qiymətləndirilir. Bu təkrarsız sənəti yaradan yayan aşıqlar Qafqazda böyük hörmət və şöhrətə malikdirlər. Poeziya və musiqimizin əzəlinin təşəkkülündə bu xalq incisinin böyük yeri mövqeyi vardır.Üzeyir Hacıbəylinin dili ilə desək "Xalq musiqisinin ən yaxşı ifaçıları aşıqlardır". Onlar ilk musiqi sənətkarları hesab olunur [6;365]. Xalq aşığı əlində sazı ilə kəndləri dolaşır, toylarda, bayram və ayinlərdə, elin qurduğu şadlıq məclislərində iştirak edir, saz çalır, nəğmə və dastan qoşur, oxuduğu lirik şeirlərdə xalqın ruhuna və əxlaqına nəcib duyğular aşılayır. Saz aşığı bütün varlığını xalqa bağlayır. O, öz xalqı ilə bir yerdə qaynayıb qarışır, onun sevinc və kədərinə şərik olur, onunla bir yerdə nəfəs alır [7;123]. Aşıq sənəti sinkretik sənətdir. Bir neçə sənət növünü cəmləşdirən, uzlaşdıran, çarpazlaşdıran, xalqa çatdıran bu şaxəli qollu-budaqlı sənətdə musiqi, ifaçılıq, rəqs və şeir bir- birini tamamlayır. Aşıq hər şeydən əvvəl şairdir,ifa etdiyi mahnıların yaradıcısıdır. Aşıq müğənnidir. O, öz nağılının xeyli hissəsini mahnı şəklində ifa edir. Aşıq ifaçıdır. O, öz hekayəsini və mahnısını söz ilə müşayiət edir. Aşıq artistdir. O, öz çıxışını xarakterik mimika ilə müşayiət edir, rəqs edir, çox vaxt hekayə qəhrəmanının hərəkətini təsvir edir. Aşıq sənətinin mahir bilicisi O.Sarıvəlli yazır: "Şeirləri havalar üstə, havaları şeirlərə görə yaradan sənətkarlar, yaradıcı aşıqlar, el bəstəkarları olmuşlar [4;139]. Aşıq termini eşq sözündən yaranmış, sənətə, əsl gözəlliyə vurğunluq mənasını daşıyır. Termin kimi təxminən XIV əsrdə yaranmışdır. Aşıq musiqisi poetik yaradıcılığı qəhrəmanlıq və vətənpərvərlik mövzuları ilə zəngin olub, xalqın istək və arzularını poetik sevgi lirikasını ifadə edir.Müxtəlif aşıq havaları bu formaların musiqi əsasını təşkil edir. Ənənəvi klassik aşıq havaları bayatı, gəraylı, qoşma, müxəmməs, divani, təcnis kimi poetik formlara əsaslanır. Aşıq poeziyasının vəzni hecadır. Havaların quruluşu, şeirin forma və hecatərkibi, bölgü xüsusiyyətləri ilə əlaqədə yaranır. Qurbani XVIəsr, Abbas Tufarqanlı, Sarı Aşıq XVII əsr, Xəstə Qasım, Aşıq Valeh, Aşıq Dilqəm XVIII əsr, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli XIX əsrdə yaşamış keçmişin görkəmli aşıqlarıdır. XX əsr aşıqları arasında Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq İslam, Aşıq Şəmşir, Hüseyn Saraclı, Əmrah Gülməmmədov, Hüseyn Cavan, AşıqKamandar, İmran Həsənov, Mikayıl Azaflı, Əkbər Cəfərov, Ədalət Nəsibov və başqalarının adlarını çəkə bilərik. Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz, Şamaxı rayonlarında həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət alır.

Ümumiyyətlə musiqi folkloru - xalqın vokal, vokal – instrumental və musiqi-rəqs yaradıcılığıdır və xalq musiqisi adlanır. Musiqi folklorunun əsas yaradıcıları köçəri maldarlar, çobanlar, ovçular, əkinçilər, sənətkarlar olmuşlar.Musiqi folklorunun bir çox cəhətləri – qəhrəmanlıq və lirika, əmək, əyləncə, bayram, faciə birləşməsidir. Azərbaycan musiqi sənətinin ayrılmaz və önəmli hissəsini qədim ənənlərə, dərin məzmuna, bədii kamilliyə zəngin janr çeşidliyinə malik olan musiqi folkloru təşkil edir. Musiqi folkloru Azərbaycan xalqının tarixini, həyatını, istək və arzularını ifadə etmiş adət və ənənələrini özündə əks etdirmişdir. Musiqi folklorunun əsas janrı xalq mahnıları sayılır.

Mahnıların qədim növlərinə mərasim nəğmələri daxildir. Azərbaycanlılar qədim və zəngin mədəniyyətin daşıyıcılarıdır. Milli mədəniyyətin vacib komponentləri etnosla bağlıdır. Milli özünəməxsusluq etnik şüurun dərinliklərində yetişir. Əsas ənənələr-etik, bədii, mədəni, ictimai və s. formalaşır. Tarixdə inkişafın varisliyi təfəkkürün etnomədəni parametrləri ilə təmin olunur. Ənənələrin məhz stabil, sabit kompleksinin üstünlüyü mənəvi yaşama hüququna yardım edir. Azərbaycan xalqının

mədəniyyətinin tarixi özünəməxsusluğu etnoqrafik başlanğıc, maddi mərasim, ictimai tərəflərlə sıx bağlıdır. İncəsənətin qarışıq növlərinin qovuşmasında müəyyən sintetik formalar var. Xalq mədəniyyətini tədqiq edərkən biz mərasimlərdə müxtəlif janr impulslarından təşkil olunan incəsənətin müxtəlif növlərinin təzahürünü müşahidə edirik. Mərasim çox mürəkkəb hadisəni təmsil edir. Mərasimdə münaqişəli və ya ziddiyyətli qüvvələr yoxdur. Mərasim ahəngdar, birlik, etnik kollektivin həyat və yaradıcılığının nəticəsi kimi yaranır. Mərasimlərdə incəsənətin iştirak etməsinin öyrənilməsi insanın maddi və tətbiqi fəaliyyətinin nəticəsi kimi mərasim və bu sferada çıxış edən incəsənət arasında olan ümumini aşkarlamağa imkan verir. Mənəvi və maddi başlanğıcların vəhdəti mərasimlərin bədii silsiləsinə birləşir. Burda özünün yekun təcəssümünü tapır. Azəbaycan mərasimlərinin məhz bədii tərəfi öz keçmişini əks etdirməyə və gələcəyə qədəm qoymağa xalqın kollektiv təşəbbüsünü təmin edir.

Folklor etnoqrafik materiallara istinadən demək olar ki, Azərbaycanda mövsüm mərasim ayinləri çox qədim tarixə malik olmuşdur. İnsanların təbiət hadisələrinə münasibəti, dini inanclar, əməklə bağlı həyat məhz mövsüm mərasimlərində daha geniş təmsil edilir. Mövsüm mərasim nəğmələrində ayrı-ayrı təbiət hadisələrinə inam və etiqadlar öz əksini tapır [1;791]. Mövsüm mərasim nəğmələrinin böyük bir qismini təbiət qüvvələrinə günəşə, yağışa, küləyə,quraqlığa təsir etmək məqsədilə oxunan havalar təşkil edir. Yazın gəlişi ilə əməkçi xalqın kənd təsərrüfatı ilə bağlı gündəlik həyatı da canlanır. Bu proseslərin uğurlu keçməsi, təbiət hadisələrindən çox asılı idi. Yazın ilk çağlarında kəndlinin yağış, leysan, daşqın və quraqlıq, susuzluq ilə üzləşməsi onu müxtəlif ovsun ayinlərinin köməyindən istifadə etməsinə yönəldirdi. Ovsun xarakterli mərasimlərin sırasında “Günəşi çağırmaq”, “Yağışı çağırmaq” məqsədi ilə icra edilən mərasimlər olduqca önəmli idi. Azərbaycanda yağışı çağırma mərasimi “Qodu-qodu” adı altında keçmişdir. Qədim Azərbaycanda müqəddəs hesab edilən Günəşin çıxmasını qarşılamaq mərasimləri keçirilib. Bu mərasim dini mahiyyət daşıyıb hər gün icra edilirmiş. Sonralar “Günəşi dəvət” mərasimi yazın gəlməsini sürətləndirmək məqsədi ilə ildə bir dəfə icra edilən xüsusi mövsüm mərasiminə çevrildi. “Günəşi dəvət” mərasim nəğməsi bu baxımdan yaranmış, bizə gəlib çatmışdır. Günəşə həsr edilən mərasimlərdə yazın gəlməsini sürətləndirmək məqsədi ilə icra olunan nəğmələr həm də müqəddəs və ilahivarlıq kimi tanınan günəşin şərəfinə oxunurdu. Misal üçün Gün çıx, gün çıx, Köhlən atı min çıx.

Günəş qışı yaza çevirən əsas amil kimi qiymətləndirilir. Qədim əkinçi və maldarlar bu mahnı ilə günəşi qarı əritməyə çağırır, öz keçəl qızını – qış təbiətini evdə qoyub saçlı qızını – yaz təbiətinin gəlməsini tələb edir. Mahnılarda dörd kəhər atlı ifadəsi il ərzində dörd fəslin olmasına işarədir. Bu mərasimlər xalqın şifahi ənənəli ədəbi və musiqi yaradıcılığının ən qədim janrlarında, qədim mahnı və ədəbiyyat abidələrində öz ifadəsini tapır. Ayinlərin məzmunu mərasim musiqisinə təsir etmiş, onun semantikasını yaratmışdır.Yaz mövsüm mərasimləri sistemində Novruz günlərində -yeni il ərəfəsində icraolunan “Şum bayramı” na azərbaycanlılar xüsusi olaraq hazırlanır. Keçmişdən əkinçiliklə məşğul olan əhali arasında torpaq çərşənbəsi zamanı icra olunan bu mərasim “Cütçü şumu” adı ilə məlumdur. Xırman yerində icra edilən bu mərasimdə torpağa ilahi bir qüvvə, ruzi, bərəkət mənbəyi kimi sitayiş olunaraqonun yaz ərəfəsində oyadılması əsas məqsəd daşıyırdı. Bunun üçün iki öküz bəzədilərək vəsf olunur, onlara kotan qoşularaq torpağa toxum səpmə mərasimi başlanırdı. Mərasim bir neçə hissədən ibarət olurdu. Əvvəlcə bütün kənd əhalisi ilk şum əməliyyatını təntənəli surətdə icra edirdi. Və hadisənin icrası ən bacarıqlı əkinçiyə-cütçü babaya tapşırılırdı. Şum mərasimindən sonra bayramın digər təntənəli əyləncəli hissəsi başlanırdı. Bu zaman yarışmalar keçirilir, oyunlar oynanılır, əmək mahnıları, “Holovar, “Şum mahnısı”, “Xırman mahnısı”, “Biçinçiyəm”, “Çıxdı günəş”, “Zəhmətin işığı”, “Cütçü şumu”,“Yeri-yeri” və s. mahnılar ifa edilirdi.

Folklorşünas E.Aslanovun qeyd etdiyi kimi, Azərbaycanda hələ islamiyyətdən əvvəl torpaqlabağlı “İsfəndəkan” adlı əkinçilik bayramı mövcud olmuş, çox təntənəli surətdə keçirilən bu bayramda şum mərasimi zamanı icraçılar tərəfindən şadlıq əlaməti olaraq nəğmələr oxunmuş, rəqslər oynanılmış, idman yarışları keçirilmişdi. Sonralar bu bayram torpaq çərşənbəsi adını alır. Qeyd edək ki, “Cütçü şumu” mərasimi, “İsfəndəkan”əkinçi bayramının sələfi, davamçısıdır. Mövsüm mərasim bayramları içərisində “Çoban bayramı” da geniş yayılmışdır. Heyvandarlıqla məşğul olan kəndlilərin yazın əvvəlində qışlaqdan yaylağa köç etməsinə həsr olunan bu mərasim xalq arasında “Dağa köçmə”, “Çoban günü”, “Köç günü” adlanır. Çoban əməyi ilə bağlı olan “Çoban avazı”, “Yetim quzu”, “Çoban” adlı mahnılarla yanaşı, sırf sağıcı mahnıları – “Tutu nənəm”, “Sağım mahnısı” da geniş yayılmışdır. Qeyd edək ki, mahnılar daxilində “ha, ha, hey”, “ha, ha, ha, ha, hey”, “he-e-ey” və s. nidalardan istifadə edilir. Bu nidalar müxtəlif Şərq xalqlarının ənənəvi musiqisində- xüsusən də muğam kompozisiya modellərininavazlı-reçitasiyalı oxu tərzində istifadə edilir.

**Ədəbiyyat:**

1. Azərbaycan Milli Ensiklopediyası. B.,2007, 791 s

2. Azərbaycan Sovet Ensiklopediyası B., 1980, 819 s
3. Bədəlbəyli Ə. Musiqi lüğəti B.,Elm, 1969, 243 s
4. Bülbül. Seçilmiş məqalə və məruzələr B.,1968, 200 s.
5. Füzuli Bayat Folklor dərsləri B.,2012Ş 424 s
6. Hacıbəyli Ü. Əsərləri II cils B., 1965, 400 s
7. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. B.,1956, 300 s

**Лейла Идрисова**

**Вокально эстрадный жанр Азербайджана и фольклор**

**Резюме**

В данной статье автор повествует об истоках эстрадного пения, исследует неразрывную связь в процессах развития вокального жанра с профессиональной национальной музыкой, которая подпитана фольклором. Автор отмечает, что фундаментом для развития национальной эстрадной музыки послужило народное творчество, в числе которых упоминает ашугское искусство, народные спектакли «гаравелли».

**Ключевые слова:** вокал, фольклор, музыкальный стиль, песня, мугам.

**Leyla Idrisova**

**Vocal pop genre of Azerbaijan and folkloreSummary**

In this article the author narrates about the origins of variety singing, explores the inextricable connection in the development of the vocal genre with professional national music, which is fueled by folklore. The author notes that the basis for the development of national variety music was folk art, including the Ashug art, folk performances "Garavelli".

**Keywords:** vokal, folk, style of music, song, mugam.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.11.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent ElladaHüseynova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**